

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 37 (24.174)

*25 fevral 2023-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Naxçıvan Penitensiar Xidmətinə yeni rəis təyin olunub

Emin Kazımov Naxçıvan Muxtar Respublikasının ədliyyə nazirinin müavini-Penitensiar Xidmətin rəisi təyin olunub. O, bu gün kollektivə təqdim edilib.

Qeyd edək ki, Emin Kazımov bundan əvvəl Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin İcra və probasiya şöbəsinin rəisi vəzifəsində çalışıb.

Şahbuz rayonunda anadan olan Emin Kazımov 20 ildir ki, ədliyyə orqanlarında xidmət edir.

**Xəbərlər şöbəsi**

## Vətəndaşların müraciətləri dinlənilib



Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, polis polkovniki Süleyman Neymətov Şahbuz rayonunda növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə rayonda Ümummilli Lider Heydər Əliyevin və Vətən müharibəsi şəhidlərinin abidə-kompleksini ziyarət edib, onların əziz xatirəsini ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında qəbula gələn 44 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb. Müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

***

Naxçıvan Muxtar Respublikası prokurorunun müavini Şahbuz rayonunda vətəndaşları qəbul etmişdir. Fevralın 24-ü Naxçıvan Muxtar Respublikası prokurorunun müavini Sənan Paşayev Şahbuz Rayon Prokurorluğunun inzibati binasında Şahbuz rayon sakinlərini qəbul etmişdir.



Qəbuldan əvvəl Naxçıvan Muxtar Respublikası prokurorunun müavini xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini və Şəhidlər xiyabanını ziyarət etmiş, gül dəstələri düzərək əziz xatirələrini ehtiramla yad etmişdir.

Qəbulda iştirak edən 35 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi ilə bağlı, mülki xarakterli mübahisələrlə əlaqədar və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Sənan Paşayev müvafiq göstərişlər vermişdir.

Qəbuldan sonra Naxçıvan Muxtar Respublikası prokurorunun müavini əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar vermiş, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırmışdır.

***

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rafael Babayevin iştirakı ilə rayonda sakinlərlə görüşüb.

Görüşdə sakinlərin sahibkarlıq fəaliyyəti, onlara güzəştli kreditlərin verilməsi, istehsal və xidmət sahələrinin yaradılması, istehlakçıların hüquqlarının müdafiəsi və digər məsələlərlə bağlı fikirləri dinlənilib.



Nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin də iştirakı ilə keçirilən qəbulda sahibkarların təklifləri müzakirə olunub, yaradılacaq sahələr üzrə investisiya layihələrinin güzəştli kreditlər hesabına maliyyələşdirilməsi ilə bağlı müvafiq göstərişlər verilib. Araşdırma tələb edən müraciətlər isə qeydiyyata alınıb və həlli üçün müvafiq tapşırıqlar verilib.

Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər barədə də vətəndaşlara ətraflı izahat verilib və icra vəziyyəti nəzarətdə saxlanılmaqla aidiyyəti strukturlara çatdırılacağı bildirilib.

Görüşdə 28 rayon sakininin müraciəti dinlənilib.

***

Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev Şahbuz rayonunda sakinlərlə görüşüb, onların müraciətləri dinlənilib.

Görüşdə, ümumilikdə, 92 rayon sakininin müraciətinə baxılıb. Yerində həll edilməsi mümkün olan müraciətlər təmin edilib. Belə ki, 7 nəfərin işlə təmin edilməsi, 28 nəfərin özünüməşğulluq proqramına, 6 nəfərin isə peşə hazırlığı kurslarına cəlb olunması ilə bağlı müvafiq işlərə başlanılıb. Bununla yanaşı, 6 nəfər əlilliyi olan şəxsə birdəfəlik maddi yardım verilməsi, 5 nəfərə isə ünvanlı dövlət sosial yardımı təyin edilməsi məqsədilə müvafiq sənədlərin Əhalinin Sosial Müdafiəsi Mərkəzinə təqdim etmələri izah olunub. Digər müraciətlərin isə qanunamüvafiq araşdırılmasına dair aidiyyəti üzrə tapşırıqlar verilib. Nazirliyin səlahiyyətləri xaricində olan müraciətlər isə aidiyyəti qurumlar tərəfindən baxılması üçün yönləndirilib.



***

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin rəisi Müslüm Cabbarzadə və Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rafael Babayev daşınmaz əmlak və torpaq məsələləri ilə bağlı rayon sakinlərinin müraciətini dinləyib.

Müvafiq məsələlərlə bağlı, ümumilikdə, 73 vətəndaş qəbul edilib. 10 vətəndaşın müraciəti yerində həllini tapıb, 36 vətəndaşa qanunvericiliklə nəzərdə tutulan tələblər izah olunub və aid qurumlara müraciət etmələri tövsiyə edilib.



Yerində həll olunması mümkün olmayan məsələlərlə bağlı 12 sakinə müvafiq sənədləri təqdim etməklə müraciət olunması izah olunub. 15 sakinin müraciəti üzrə əmlaka yerində baxış keçirilərək araşdırılması və həlli istiqamətində tədbirlər görülməsi aid şöbələrə tapşırılıb.

## Xocalı soyqırımına həsr olunmuş tədbirlər keçirilib

*Xocalı soyqırımının 31-ci ildönümünə həsr olunmuş anım tədbirləri keçirilib. Həmin tədbirlərdə əvvəlcə soyqırımı qurbanlarının və Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Naxçıvan Muxtar Respublikasının Bakıdakı Daimi Nümayəndəliyində keçirilən tədbirdə Daimi Nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov çıxış edərək Azərbaycan tarixində ən qanlı hadisələrdən biri olan, amansızlığı və xüsusi qəddarlığı ilə seçilən, xalqımıza və millətimizə qənim kəsilmiş şovinist və militarist erməni faşizmi tərəfindən xalqımıza qarşı törədilmiş Xocalı qətliamı barədə geniş məlumat verib. Qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev bu faciəni başəriyyətə qarşı yönəlmiş ən qəddar soyqırımı kimi dəyərləndirib.



Çıxışda Xocalı soyqırımının dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində ölkəmizdə və xaricdə mühüm layihələrin, böyük işlərin həyata keçirildiyi vurğulanıb. Bildirilib ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan siyasət və birinci xanım Mehriban Əliyevanın təşəbbüsü, Heydər Əliyev Fondunun fəaliyyəti nəticəsində bu faciə bir sıra ölkələr və onların dövlət orqanları tərəfindən soyqırımı kimi tanınıb.

Diqqətə çatdırılıb ki, ermənilər Xocalı soyqırımını törətməklə xalqımızın mübarizə əzmini qırmaq istədilər. Amma, əksinə, biz bir xalq olaraq daha güclü və əzmli olduq. Bu gün Azərbaycan dünyada qalib ölkə, söz və nüfuz sahibi kimi tanınır.

Tədbir digər çıxışlarla davam edib.

***

AMEA Naxçıvan Bölməsində "Xocalı soyqırımı: səbəbləri, nəticələri və dərsləri" mövzusunda elmi konfrans keçirilib.

Konfransı giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb. Akademik çıxışı zamanı XIX əsrdən başlayaraq Azərbaycan torpaqlarına ermənilərin məqsədli şəkildə köçürülməsindən, onların tarixi torpaqlarımız hesabına "böyük Ermənistan" xülyasını gerçəkləşdirmək cəhdlərindən, bu məqsədlə xalqımıza qarşı törətdikləri kütləvi qırğınlardan və soyqırımlardan danışıb. Qeyd edilib ki, Azərbaycanın tarixi əraziləri ilə bağlı imzalanan heç bir müqavilədə ermənilərin adı çəkilmir. Təkcə bu fakt deməyə əsas verir ki, ermənilərin Azərbaycan torpaqlarında heç bir "qədim tarixi" ola bilməz.

Bildirilib ki, Xocalı faciəsinə ilk hüquqi-siyasi qiyməti Ümummilli Lider Heydər Əliyev vermişdir. Məhz bu müdrik addımın, eləcə də Heydər Əliyev siyasi xəttinin layiqli davamının nəticəsidir ki, bu gün Xocalı soyqırımı dünyanın 20-yə yaxın ölkəsi, ABŞ-ın 24 ştatı tərəfindən tanınır.

AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdirləri, dosentlər Asəf Orucov "Xocalı faciəsi ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət", İlhami Əliyev "Xocalı faciəsi – insanlığa qarşı törədilmiş cinayət", İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri Ramiz Qasımov isə "Xocalı faciəsi bədii ədəbiyyatda" mövzularında məruzə ediblər.



Məruzələrdə Qaradağlı və Xocalı soyqırımları ərəfəsində ölkədə mövcud olan ictimai-siyasi vəziyyətdən, mühüm strateji mövqeyə malik Xocalı şəhərinin blokadaya salınmasından, soyqırımının başvermə səbəblərindən, ölkə rəhbərliyinin Xocalıdakı faciəni gizlətmək cəhdlərindən bəhs olunub.

Qeyd edilib ki, 44 günlük Vətən müharibəsində müzəffər Ordumuz ermənilərin törətdikləri cinayətlərin qisasını hərb meydanında almışdır.

Sonda konfrans iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***

Naxçıvan Dövlət Universitetində Xocalı soyqırımının 31-ci ildönümü münasibətilə ədəbi-bədii kompozisiya və sərgi təşkil olunub.



1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə baş vermiş Xocalı faciəsini Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcək dəhşətli cinayət, terror hadisəsi adlandıran ali təhsil ocağının rektoru, dosent Elbrus İsayev vurğulayıb ki, Prezident cənab İlham Əliyevin uzaqgörən siyasəti və Azərbaycan xalqının güclü iradəsi nəticəsində bu gün Xocalı soyqırımının dünya ictimaiyyətinə tanıdılması istiqamətində böyük addımlar atılır. 44 günlük Vətən müharibəsində əldə olunan qələbə Azərbaycan tarixində son 200 ildə ən parlaq qələbə olaraq tarixə, yaddaşlara həkk olundu və bu qalibiyyət azərbaycanlılara qarşı törədilmiş terror aktlarına qarşı ən tutarlı cavab idi.

Sonra Tələbə Teatr Studiyası "Qan yaddaşım, Xocalım" adlı bədii kompozisiya nümayiş etdirib.

Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, Təsviri incəsənət kafedrasının müəllimi, heykəltəraş Elman Cəfərovun hazırladığı şəhid barelyefləri şəhidlərin yaxınlarına təqdim edilib. Sonda soyqırımına həsr olunan filmə və sərgiyə baxış olub.

***

Fevralın 24-də muxtar respublikanın ümumtəhsil məktəbləri ilə Xatirə Muzeyi arasında interaktiv dərs keçilib. Məktəblilərə amansızlığına və qəddarlığına görə bəşər tarixinə qanlı iz salmış Xocalı soyqırımı haqqında məlumat vermək, Vətənə, torpağa sədaqət və məhəbbət duyğularını gücləndirmək məqsədilə keçilən dərsdə qeyd olunub ki, Xocalı soyqırımını törətməkdə ermənilərin əsas məqsədi xalqımızın mübarizə əzmini qırmaq və əhəmiyyətli geostrateji mövqeyə sahib olmaq idi.

Bildirilib ki, əvvəldən planlaşdırılmış əməliyyatın qəddarlığına baxmayaraq, Xocalı sakinləri son anadək özlərini əsl qəhrəman kimi aparmış, axır nəfəslərinədək vuruşaraq düşmən qarşısında əyilməmişlər.



Bildirilib ki, həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində olan Ümummilli Liderimiz Heydər Əliyev ilk dəfə Naxçıvanda Xocalı soyqırımı haqqında xüsusi bəyanat vermiş, soyqırımını törədənlərin və səbəbkarların məsuliyyətə cəlb olunmasını tələb etmişdir. Dərsdə Ulu Öndərin Xocalı soyqırımı həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması üçün görülən təsirli tədbirlərdən də bəhs olunub.

Qeyd edilib ki, Azərbaycanın müzəffər Ordusunun 44 günlük zəfər yürüşü zamanı düşmən torpaqlarımızdan qovuldu, Qarabağın, xüsusən də xalqımızın ləyaqət və qürur simvolu olan Şuşa işğaldan azad olundu. Eyni zamanda qələbəyə gedən yolda Xocalının da qisası alındı. Dağlıq Qarabağ münaqişəsinin uğurla və ədalətlə həll edilməsi, həm də yaşadığımız bölgədə sülhə və təhlükəsizliyə əvəzsiz töhfədir. Azərbaycan xalqı və dövləti Xocalı soyqırımını heç vaxt unutmur və unutmayacaqdır.

İnteraktiv dərs Naxçıvan Muxtar Respublikasının 200-dən çox ümumtəhsil məktəbində izlənilib.

Həmin gün muxtar respublikanın bütün ümumtəhsil məktəblərində ilk dərs saatı da Xocalı soyqırımına həsr edilib.

**Xəbərlər şöbəsi**

# Qisası döyüş meydanında alınan Xocalı

*Tarix öz miqyası ilə bir çox dəhşətli faciələrin şahidi olub. Belə ki, hələ XIV əsrdə minlərlə insanın ölümünə səbəb alan taun epidemiyası, 1556 -cı ildə Çinin Şansi vilayətində 630 min insanın həyatına son qoyan dəhşətli zəlzələ, XX əsrdə milyonlarla insanın ölümünə səbəb olan I və II Dünya müharibələri, Xatın, Leyptsiq, Oradur dəhşətləri, Xirosima və Naqasaki şəhərlərinin taleyinə qara xətt çəkən atom bombaları. Bütün bunlar zaman-zaman baş verib cəmiyyəti lərzəyə gətirsə də, XX əsrin sonlarında xalqımıza qarşı törədilən Xocalı faciəsi bəşəriyyətin tarixində yer tutan faciələrin ən dəhşətlisi hesab olunmalıdır.*




Xalqımıza qarşı törədilən faciənin şahidi fransız jurnalisti Jan-İv Ginyet yazırdı: “Mən müharibələr haqqında, alman faşistlərinin qəddarlığı haqqında çox eşitmişəm, lakin 5-6 yaşlı uşaqları, dinc əhalini qırmaqla ermənilər onları arxada qoydular”.

1956-cı ildə Budapeşt, 1968-ci ildə Praqa, o cümlədən 1989-cu ildə Tbilisi, 1991-ci ilin Riqa və Vilnüs hadisələrinə müvafiq hüquqi qiymət verdiyi halda, 1990-cı ilin yanvarında Bakıda yaşanan olaylara, Xocalı faciəsinə fərqli prizmadan baxıldı. Həmin hadisələr SSRİ rəhbərliyinin Azərbaycanda guya ekstremist qüvvələri zərərsizləşdirmək və əhalini xaosdan qorumaq üçün atdığı məcburi addımı kimi tanındı.

Azərbaycan xalqı son iki yüz il ərzində erməni şovinistlərinin davamlı olaraq etnik təmizləmə və soyqırımı siyasətinə məruz qalmışdır. Soydaşlarımız tarixi torpaqlarından dəfələrlə qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmiş, on minlərlə azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir. Hələ XIX əsrin ilk onilliklərində rus çarizmi tərəfindən əzəli Azərbaycan torpaqlarında yerləşdirilən ermənilər dəfələrlə fitnəkarlığa, xəyanətə əl atmış, öz havadarlarına arxalanaraq 1905-ci, 1918-1920-ci illərdə və digər vaxtlarda xalqımıza qarşı qanlı qırğınlar törətmişlər.

Tarixi faktlar təsdiqləyir ki, “Dənizdən-dənizə Ermənistan” xülyası ilə yaşayan erməni ideoloqları müəyyən xarici havadarlarının köməyi ilə müxtəlif vaxtlarda azərbaycanlılara və türklərə qarşı amansız terror və soyqırımı siyasəti həyata keçirmiş, etnik təmizləmə aparmışlar. Azərbaycanın tarixində unudulması mümkün olmayan, bütövlükdə, xalqın qəlbində dərin iz salan elə hadisələr də vardır ki, heç zaman xalqın qan yaddaşından silinmir. Ermənilərin törətdikləri Xocalı soyqırımı da unudulması mümkün olmayan belə dəhşətli hadisələrdəndir.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri Xankəndi şəhərində yerləşdirilmiş keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayının köməyi ilə Xocalı şəhərinə hücum etmişlər. Əvvəlcə şəhər dörd tərəfdən erməni qoşunları tərəfindən əhatə olunmuş, sonra isə Xocalıya artilleriya və ağır hərbi texnikalardan güclü və amansız atəş açılmış, az bir vaxt ərzində şəhərdə yanğın baş vermiş, şəhər tamamilə alova bürünmüşdür. Nəticədə, şəhərin müdafiəçiləri və yerli əhali buranı tərk etməyə məcbur olmuşlar.

Fevralın 26-sı səhər saat 5-ə kimi şəhər erməni işğalçıları tərəfindən zəbt edilmişdir. Şəhəri tərk etməyə məcbur olan əhali dağlara, meşələrə qaçmışdır. Soyuq, qarlı fevral gecəsində qız-gəlinlərimiz əsir düşmüş, girov götürülmüşdür. İnsanlar ermənilərdən yayınıb meşələrə, dağlara qaçsalar da, onların çoxu soyuqdan, şaxtadan məhv olmuşdur.

Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində dinc Xocalı əhalisindən 613 nəfər öldürülmüş, 487 nəfər şikəst olmuş, 1275 dinc sakin – qoca, uşaq, qadın əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqir və həqarətlərə məruz qalmışdır. 150 nəfərin taleyi hələ də məlum deyil. Bu, əsl soyqırımı idi. Xocalıda öldürülmüş 613 nəfərdən 106-sı qadın, 63-ü uşaq, 70-i qoca idi. Xocalı faciəsində 8 ailə, bütövlükdə, məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir.

Xocalıda baş verən dəhşətləri həmin dövrdə bir sıra xarici ölkələrin aparıcı kütləvi informasiya vasitələri də işıqlandırıb. Faciə baş verən gün Xankəndidə ezamiyyətdə olmuş Fransanın “Libardion” qəzetinin əməkdaşı Jul Gen Vaynerin qeydləri xüsusi maraq doğurur. Xocalı soyqırımını qorxulu yuxuya bənzədən Vayner jurnalistika ilə məşğul olduğu 25 il ərzində müharibələrin getdiyi müxtəlif ölkələrdə olduğunu, lakin Xocalı şəhərindəki kimi dəhşətli və tükürpədici mənzərələrlə rastlaşmadığını yazmışdır. O, “Libardion” qəzetində çap etdirdiyi “Erməni terrorizminin canlı şahidi oldum” sərlövhəli yazısında Xocalıda baş verənlərin qabaqcadan hazırlanmış ssenari olduğunu açıq bəyan etmişdir. Onun fikrincə, burada məqsəd, bütövlükdə, bəşəriyyətin gözünü qorxutmaq olmuş, erməni terrorizminin dünyanı məhz bu yolla “ram etməyə” çalışdığını göstərmək istəmişdir.

Faciənin baş verməsində əsas məsuliyyətin bilavasitə o zaman ölkəyə rəhbərlik edən qətiyyətsiz hakimiyyətin üzərinə düşdüyünü də açıq deməliyik. Hadisələrin ilkin dövrlərində ozamankı iqtidar Xocalı şəhərinin mülki əhalisinin xilası naminə vaxtında qətiyyətli tədbir görməmişdir. Dövlətin başında duranlar hadisədən sonra xalqın qəzəbindən qorxaraq onun miqyasını kiçiltməyə çalışmış, rəsmi məlumatlarda isə Xocalıda, guya, “iki nəfərin öldüyü” bildirilərək əsl həqiqət barədə ictimaiyyətə yalan məlumat verilmişdir.

Xocalı faciəsi dünyada törədilən bir çox soyqırımı hadisələrindən dəhşətli olsa da, bu hadisəyə uzun müddət hüquqi-siyasi qiymət verilməmişdir. Yalnız Ümummilli Lider Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilmişdir. Ulu Öndərin təşəbbüsü ilə Milli Məclis “Xocalı soyqırımı Günü haqqında” xüsusi qərar qəbul etmiş, sənəddə hadisənin başvermə səbəbləri təfsilatı ilə açıqlanmışdır. Eyni zamanda Xocalı faciəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, erməni qəsbkarlarının beynəlxalq müstəvidə ifşası mühüm vəzifə kimi qarşıya qoyulmuşdur. Ümummilli Lider Heydər Əliyevin “Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında” 1997-ci il 25 fevral tarixli Sərəncamı ilə hər il fevral ayının 26-da saat $17^{00}$-da Azərbaycan Respublikası ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilir. Ulu Öndər Heydər Əliyev demişdir: ***“Bir tərəfdən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətinin nümunəsidir, ikinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımıdır, vəhşiliyin görünməmiş bir təzahürüdür”.***

Xocalı soyqırımının dünyada tanıdılması hazırda Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində artıq bir sıra beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə Ermənistanı işğalçı dövlət kimi göstərilmişdir. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində görülən işlər bu gün də davam etdirilir. Faciənin dünya ictimaiyyətinə tanıdılması istiqamətində həm dövlət səviyyəsində, həm müxtəlif qurumlar, həm də ayrı-ayrı vətəndaşlarımız tərəfindən istər respublika daxilində, istərsə də respublikamızdan kənarda çoxlu iş görülüb. Bundan əlavə, beynəlxalq səviyyəli görüşlərdə, toplantılarda, konfranslarda bu mövzu gündəmə gətirilib, yürüşlər, mitinqlər keçirilib, sənədli xronoloji materiallar, fotolar dərc edilib, kitablar buraxılıb, sərgilər təşkil olunub.

Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində aparılan sistemli işlərin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Hersoqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də ABŞ-ın 24 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyiblər.

2016-cı il aprelin 2-dən 5-dək davam edən Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatları ölkəmizə hərbi-strateji nöqteyi-nəzərdən çox böyük üstünlüklər verdi. İlk növbədə, Azərbaycan çox mühüm psixoloji qələbə qazandı. Azərbaycan Ordusu Qarabağın şimal və cənub hissələrində çox böyük strateji əhəmiyyətə malik yüksəklikləri azad etdi. Azərbaycan bununla öz torpaqlarını azad etmək bacarığını, potensialını, döyüş əzmini nümayiş etdirdi. Nəticədə, 4 günlük döyüşlərin beynəlxalq əks-sədası da dərhal duyuldu və Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlaması bir daha bütün dünyaya çatdırıldı.

Prezident İlham Əliyevin: ***“Xocalı faciəsi erməni millətçilərinin yüzilliklərboyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsidir. Bu soyqırımını törətməkdə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirmiş, qəhrəman oğul və qızlarımızı müqəddəs Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etmişdir”*** sözləri Zəfər salnaməmizin yazılmasında hər kəsin birliyini bir daha nümayiş etdirir.

2020-ci il sentyabrın 27-dən başlayan, 44 gün davam edən və ermənilər tərəfindən işğal edilmiş ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsi isə tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Azərbaycan xalqı öz liderinin – Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Bu bir reallıqdır ki, bütün müharibələrdə əsas sözü xalq və onun ordusu dediyi kimi uğurlu zəfərlərdə sərkərdənin də çox böyük rolu olur. Müharbədə bütün dünya Azərbaycan xalqının necə qətiyyətli uğurlu sərkərdəyə – Ali Baş Komandana sahib olduğunu aşkar gördü. Prezident cənab İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə deyil, diplomatik cəbhədə də böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə, Vətən müharibəsi isə tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi.

Tarixi zəfərə imza atıldı, Azərbaycan Qarabağa qovuşdu, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə, eləcə də digər şəhər və rayonlarımızda həlak olan günahsız dinc insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdi. Bu qələbəni, zəfəri bizə yaşadan isə Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, ölkə Prezidentimiz, Ali Baş Komandanımız cənab İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, güclü ordumuz, rəşadətli əsgər və zabitlərimiz oldu.

*Azərbaycan əsgəri əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət nümunəsi göstərdi. Düşmənin 30 il ərzində qurduğu, milyonlarla vəsait sərf etdiyi nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi, müzəffər Ordumuzun tətbiq etdiyi savaş strategiyası müasir hərb tarixinə yeni örnək oldu. Belə vəziyyətdə Ermənistanın qarşısında yalnız iki yoldan birini seçmək qalırdı. Ya Ermənistan ordusunun son tör-töküntüləri də döyüş meydanında son nəfərinə qədər məhv ediləcəkdi, ya da “ağ bayraq qaldırıb”, biabırçı hərbi məğlubiyyətini etiraf edəcəkdi. Paşinyan hakimiyyəti reallığı, nəhayət ki, qəbul etdi və noyabrın 10-da Ermənistan “ağ bayraq qaldırdı”, kapitulyasiya bəyannaməsini imzaladı.Bəli, Azərbaycan Ordusu Qarabağı xilas etməklə yanaşı, Xocalının da qisasını aldı. Bu qələbə müzəffər Azərbaycan Ordusunun gücünü bütün dünyaya nümayiş etdirdi. İnanırıq ki, qürurlu və güclü xalqımız Prezident cənab İlham Əliyevin ətrafında bundan sonra da sıx birləşərək qüdrətli Azərbaycan uğrunda mübarizəni əzmlə davam etdirəcəkdir.*

**Arzu ABDULLAYEV**
***Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Münasibətlər kafedrasının əməkdaşı, tarix üzrə fəlsəfə doktoru***

## *“Açıq qapı”* günü keçirilib



Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən Babək Rayon Məhkəməsinin inzibati binasında növbəti “Açıq qapı” günü keçirilib.Vətəndaşlara hüquqi yardımların göstərilməsi məqsədilə keçirilən tədbir müraciət edən şəxslərin maarifləndirilməsi və problemlərinin həll olunmasında peşəkar dəstəyin göstərilməsinə xidmət edir.

Nazirliyin əməkdaşları tərəfindən müraciət edən vətəndaşların problemləri dinlənilib, onlara qanunamüvafiq məsləhətlər verilib və həlli mümkün olan məsələlərə dəstək göstərilib.

Nazirlikdə təsdiq olunmuş Tədbirlər Planına əsasən “Açıq qapı” günlərinin davamlı olaraq keçirilməsi nəzərdə tutulmuşdur.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin saytı “GOV.AZ” zonasına köçürülüb

*Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin elektron informasiya resursu yeni “neco.gov.az” domen adı ilə AzStateNet şəbəkəsinə köçürülüb.*




Yenilənmiş internet səhifəsi Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mühəndis-proqramçıları tərəfindən müasir proqramlaşdırma dillərindən istifadə edilərək hazırlanıb.

Saytın optimizasiyası (SEO-Search Engine Optimization) axtarış sistemlərinə uyğunlaşdırılması, “Google” axtarış sistemində qeydiyyatdan keçirilməsi və axtarış sistemlərində ön sıralarda tapılması üçün nazirliyin mühəndisləri tərəfindən zəruri texniki tədbirlər həyata keçirilib. Həmçinin saytın domen ünvanı da müvafiq qaydada yenilənməklə domenə bağlı e-poçt adresi ilə təmin ediləcəkdir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən muxtar respublikada dövlət orqanlarının internet səhifələrinin yenilənməsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Erməni vəhşəti Xocalı soyqırımı şahidlərinin xatirələrində...



*Laylay dedim yatasan,*
*Qızılgülə batasan.*
*Qızılgülün içində,*
*Şirin yuxu tapasan.*

İlahi, nə gözəl sevgidir bir ananın sonsuz və təmənnasız məhəbbətlə övladına layla söyləməsi. Onun tez böyüməsi və xoşbəxt olması arzusu ilə usanmadan hər dəfə eyni qayğı ilə əzizləməsi, bəlkə də, nə qədər fərqli duyğunu, həyəcanı özlüyündə təcəlla edir. İlahi, həm də necə çətindir canından bir parça olan körpə övladın ayazlı, şaxtalı bir qış gecəsində nəvazişlə əbədi yuxuya tapşırılması.

Öz dəhşəti ilə insanlıq və humanizm prinsiplərinin qara ləkəsi olan Xocalı faciəsi ana və atalar övladlarını, övladlar gələcəklərini, bütöv bir şəhər isə ümumilikdə, hər şeyini itirdi. Həyat onlar üçün bir daha əvvəlki kimi olmadı. Bəli, ölüm Uca Yaradanın əmri, hər bir canlı üçün isə haqdır! Onun bizi harada və necə gözlədiyini bilmirik. Elə həmin səssiz gecə Xocalı sakinləri də onları nələrin gözlədiyini, azğınlaşmış mənfur düşmənin "nələrə qadir olduğunu" bilmirdilər...

Gecəyarıdır... Artıq fevral ayı təqviminə sıradan bir gecəni daha əlavə edir. Əvvəlki günlərdən xocalılar üçün daha böyük qorxu, vahimə və təlaş ilə fərqlənən 25 fevral – çərşənbə axşamı o müdhiş gecə ilə əvəzlənir. Birazdan dünya dinc əhalinin kütləvi qətliamına bir daha şahidlik edəcəkdi. Xatın, Holokost, Ruanda kimi acının, işgəncənin ən dəhşətlisini bu dəfə Qarabağ bölgəsində yerləşən balaca bir şəhər yaşayacaqdı...

Ermənilər bir insanlıq utancı olan Xocalı faciəsini törədirlər həmin gecə. Bu faciə görünməmiş amansızlıq, qətl faktları, eyni zamanda öz miqyası ilə tarix səhifələrində ermənilərin xislətini bir daha bütün aydınlığı ilə təcəssüm etdirir. Şübhəsiz ki, Xocalı faciəsi erməni və havadarlarının insanlıq adına ən böyük cinayətlərindən biri, həmçinin yüzlərlə Vətən oğlunun mübarizlik simvoludur.

Xocalı bu gün həm də şəhidlərlə yanaşı, baş verən vəhşəti bütün iliklərinə qədər yaşamış şahidlərin şəhəridir. Erməni xislətini gözləri ilə görmüş, fəryad edən körpələrin səsini eşitmiş, doğma ocaqlarında yuvasız qalmış sakinlərin əzəli torpağıdır. Bu dəhşətli soyqırımı faktları şahidlərin yaddaşında, arxivlərdə, mətbuat səhifələrində, foto və videolarda yaşayır.

Xocalıda baş verən hadisələrdən bixəbər, sabahın qayğısı ilə gecəyə gözlərini yuman Dürdanə və Elşad adlı bacı və qardaş vardı. Ailəsi vaxtsız köçən bu bacı-qardaş ikinci zərbəni də elə mənfur düşmənin hücumundan sonra o qanlı gecədə aldılar. Qardaş əli-qolu bağlı əsir, bacı isə azğın düşmən əlində. İfadə etməsi çox çətin, mümkünsüzdür. ***Dürdanə Ağayeva*** həmin gecəni belə xatırlayır: – Xocalıya hücum olunan gecə biz meşəyə üz tutduq. Buz kimi havada qarı yara-yara Ağdam istiqamətinə qaçırdıq. Qara Qayanın üstündə əsir düşdük. Xocalının yükü balaları idi. Elə bir ana yox idi ki, onun bağrında övladı olmasın. Xankəndidən Əskərana əsir aparanda məndən soruşdular ki, "eviniz haradadır?" Evimiz yol qırağında idi, – deyə göstərdim. Aparıb öz həyətimizdə qardaşımın gözü önündə məni döydülər. Bütün ermənilər də bizi dairəyə almışdı.. Səkkiz gün əsirlikdə qaldım. Heç vaxt o günləri unutmaram.

Xocalı qətliamının ilk şahidlərindən olan, jurnalistləri bu vəhşiliyin törədildiyi yerə helikopterlə aparan ukraynalı pilot ***Kraveç Leonid Markoviç*** isə müsahibələrinin birində deyirdi: "Xocalıda sinəsindən 10-a yaxın güllə yarası alan 5-6 yaşlarında uşaq meyiti vardı. Həmin vaxt ata hissiyyatını tamamilə itirmişdi".

Səngiməyən o dəhşətli anların, acıların qəhrəmanlarından biri də Xocalıda 4 uşağı ilə 10 günlük girovluq həyatı yaşayan ***Mehriban Bəkirova***dır. Mehriban xanım əlində olan yaylığı üzünə sıxaraq axan gözyaşını silir, səsi titrəyərək o günləri belə xatırlayır: "...Atışma, mərmilərin partlaması o qədər şiddətli idi ki, uşaqları da götürüb qonşularla birgə sığınacağa girdik. Orada bizi tapdıqdan sonra qolumuzdan, saçımızdan tutub, sürüyə-sürüyə çölə çıxardılar. Üçgünlük körpə uşağımı əlimdən alıb yerə çırpdılar. Uşağı götürmək istəyəndə kürəyimdən təpiklə vurdular. Üzüüstə yerə yıxıldım. Durub uşağa tərəf qaçanda bu dəfə başıma avtomatın arxasıyla zərbə endirdilər. Övladıma çatıb, onu götürəndə isə təpiklə bələkdə olan uşağımı vurmağa başladılar". Ana, haqlı olaraq, ah çəkir, fəryad edir: "Üçgünlük bir körpəyə bu cür davranmaq insanlığa sığarmı?"

Həmin gecə qəlbi Vətən eşqi, azadlıq duyğuları ilə alışan, o cümlədən igidliyinə görə "Mixaylo" ləqəbi ilə şöhrət qazanan yurd fədailərindən biri də ***Tofiq Hüseynov*** idi.

"Xocalı balası, yerli müdafiə dəstəsinin komandiri Tofiq Hüseynov haqqında silahdaşlarından biri belə deyir: "Fevralın 26-da 366-cı motoatıcı alayın köməyi ilə Xocalını viran qoyan ermənilər Kətik kəndi yaxınlığında Tofiqi üç gün mühasirədə saxladılar. Üç gün ermənilərin "təslim ol, səni sağ buraxaq" əmrini vecə almadı. Son gülləsinə qədər vuruşub, axırda qumbara ilə özünü partlatdı. Tofiqin meyitini alarkən ermənilərdən biri deyirdi: "Mən onu tanıyırdım. Bilirdim, o, necə oğlandır. Onu tutmağa çalışırdıq ki, 10-15 erməniyə dəyişək. Amma o kişi kimi vuruşurdu, kişi kimi də öldü".

Doğma Vətən torpağını canından əziz bilən, uğrunda can verməyə, qan tökməyə müştaq olan Xocalı cəngavərlərindən biri də ***Əlif Hacıyev*** idi. Həmin gün erməni vəhşiliyinin şahidi olan həmyerlilərimiz Əlifin göstərdiyi şücaətdən, keçdiyi şərəfli döyüş yolundan, xidmətlərindən iftixarla danışır: "Qüvvələr nisbəti qeyri-bərabər olduğundan təkidlə Əlifi geri çəkilməyə çağırırdılar. O, bir an belə bu haqda düşünmürdü. Əksinə mühasirədə qalan insanların təhlükəsiz vəziyyətdə Ağdama təxliyəsi üçün tapşırıq verdi. O dəhşətli gecədən salamat çıxmağımızda Milli Qəhrəman Əlif Hacıyevin müstəsna rolu oldu. Onun sayəsində biz sağ-salamat Ağdama çatdıq. Buna görə də ömrümüzün sonunacan ona minnətdar qalacağıq..."

Əlif deyirmiş ki, ola bilər ki, Ağdam da, Şuşa da, Xocalı da alınsın. Amma vaxt gələcək Azərbaycanın qeyrətli oğulları bu torpaqları işğaldan azad edəcək. Son nəfəsinə qədər bu müqəddəs və şərəfli amal uğrunda qəhrəmancasına mübarizə aparan Əlif Hacıyev elə doğulub boya-başa çatdığı Xocalı torpağında da şəhidlik zirvəsinə yüksəldi.

Xocalı sakinlərinin yurd sevgisi dəfələrlə közərsə də, heç bir vəchlə sönmədi. Gələcəyə olan nikbin baxış öz yerini heç zaman ümidsizliyə təslim etmədi. Çünki xocalılılar kimi bütöv Azərbaycan xalqı öz liderinə, xalq-ordu tandeminə hər zaman güvənib. Nəhayət, ən yeni tariximizə qızıl hərflərlə yazılan, hər bir azərbaycanlının qürur rəmzinə çevrilən 44 günlük Vətən savaşında torpaqlarımız düşmən işğalından azad edildi. Xocalı nisgilinin erməni vəhşiliyinin qurbanı olan yüzlərlə Vətən övladının qisası məhz döyüş meydanında alındı. Üçrəngli, şanlı bayrağımız əbədi və əzəli Qarabağımızda – bütöv Azərbaycanda dalğalandı. Ölkə Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılan bu tarixi və parlaq QƏLƏBƏ öz yurdlarında yuvasız qalan həmyerlilərimizin dədə-baba torpaqlarına qayıtması üçün də münbit zəmin yaratdı. Qarabağ bu gün artıq döyüş meydanından geniş abadlıq, quruculuq meydanına çevrilib. Vaxtilə öz yurdlarından zorla çıxarılan soydaşlarımızın qədəmlərini böyük coşqu və sevinc hissi ilə qarşılayır bu torpaqlar. Deyirlər, "haqq nazilər, ancaq üzülməz". Hər zaman haqqın, ədalətin bərpası uğrunda mübarizə aparan Azərbaycan xalq-lider tandemi ilə dosta sevinc, düşmənə isə gözdağıdır. Düşmən demişkən...

Sirr deyil ki, əsrin qara ləkəsi Xocalıda itkin düşən yüzdən artıq soydaşımızın taleyi hələ də sual altındadır. Bu məqamda təəssüf doğuran prioritet məsələlərdən biri də Beynəlxalq Qızıl Xaç Komitəsinin ermənilərin bu addımlarına prinsipial yanaşmaması, onlara qarşı sərt tədbirlər görməməsi, ümumilikdə, "arzuolunmaz" siyasi nəticələrlə üzləşmək istəməməsidir. Əslində, fəaliyyəti hərbi münaqişə və zorakılıq qurbanlarının həyat və ləyaqətlərinin qorunması, onlara yardım göstərilməsi ilə bağlı olan bu təşkilatın nümayiş etdirdiyi fəaliyyətsizlik həm də hər cür zorakılıq aktının – terrorun, soyqırımların əleyhinə qarşı çıxan və antiterror Koalisiyasına qoşulan ilk ölkələrdən olan Azərbaycana qarşı qərəzli mövqe deməkdir. Təbii ki, "neytral" təşkilatların I Qarabağ müharibəsində qaçqın, itkin və girov düşmüş minlərlə həmyerlimizə qarşı biganə münasibət bəsləməsi və ikili standartlar tətbiq etməsi Ermənistanı öz məkrli siyasətindən dönməməyə daha da təşviq etməkdədir. Çağdaş dövrümüzdə insan cəmiyyətinin üzləşdiyi ən böyük bəlalardan biri hesab edilən terrorizm Ermənistanın xislətindədir və başda Beynəlxalq Qızıl Xaç Komitəsi olmaqla digər nüfuzlu qurumların bu xislət müqabilində çox yumşaq mövqe sərgiləməsi təəccüb və təəssüf doğurur!..

**Arif BAYRAMOV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

## "Xocalı sakinlərinin başına gələnlər insanlıq tarixinin ən böyük yarası, məlhəmi isə zəfərimizdir"

*Çox da uzaq keçmişdə yox, 31 il öncə xalqımızın taleyinə erməni vandalizminin bariz sübutu olan ən dəhşətli kütləvi terror hadisələrindən biri – Xocalı faciəsi yazıldı. Əsassız torpaq iddiaları ucbatından ermənilər xalqımıza göstərdikləri azğın və qəddar rəftarla neçə-neçə günahsız, əliyalın insana divan tutdular.*

Minlərlə insan 25 fevral gecəsi bir də nə zaman evlərinə geri dönəcəyini bilmədən oradan ayrıldı. Bu fəlakətlərin içində yaşayan, həmin gündən sonra qardaş itkisinin ağır yükünü ürəyində daşıyan 70 yaşlı Xocalı sakini ***Sevda Xanlarova*** illər ötsə də, həmin ağrı-acılı günləri kədər və qisas hissi ilə belə xatırlayır: "Əsil-kökümüz Laçın rayonundandır, ancaq özümüz Xocalıda yaşamışıq. 39 yaşım var idi. Yer üzündə inanmıram ki, yaşanan hadisələri və ondan öncəki günlərin ağırlığını ifadə edə bilən söz olsun. Fevralın 25-nə kimi Xocalıda vəziyyət illərboyu mürəkkəb olmuşdu. Qazdan, işıqdan, ərzaqdan həmişə əziyyət çəkmişdik. Bunlar bir yana, evimizdə də rahat yaşaya bilməmişik. Bütün günü başımızın üstündən güllələr, bombalar ələnirdi. Çölə çıxmaq mümkün deyildi, günlərlə zirzəmilərdə qalırdıq. Artıq şəhərə gediş-gəliş də yox səviyyəsinə düşmüşdü. Həmin vaxt uşaq və qadınları şəhərdən çıxarmağı məsləhət bildilər. Mən də uşaqlarımla birgə 1991-ci ilin sonlarında Ağdama getməli oldum. Evimizi, qohum-qardaşı geridə qoyub çıxdıq şəhərdən. Qardaşlarım Muradla Vaqif Xocalıda qaldılar. Qardaşım Murad o vaxt Vaqifə təklif edib ki, 5 uşağı və yoldaşı Bəsirəni Ağdama göndərsin ki, bizdə qalsınlar. Birazdan Vaqif və uşaqlar Bəsirə ilə birlikdə Ağdama gəldilər. Bəsirə 2 kişini (yoldaşı Vaqif və qaynı Muradı) orada tək qoymamaq, onlara yemək hazırlamaq, ev-eşiyə baxmaq üçün geri qayıtmaq istədiyini bildirdi. Nə qədər dil töksək də, Bəsirəni razı sala bilmədik, elə həmin gün Xocalıya geri döndülər. Biz bilirdik ki, geri – Xocalıya qayıtsalar, onları hansı tale gözləyir.



Amma fikirlərindən daşındıra bilmədik. Qardaşımın 5 balaca uşağı həmin gün ana-atası ilə son dəfə vidalaşdığından xəbərsiz idi...

Əhali könüllü şəkildə Xocalı özünümüdafiə batalyonunu yaratmışdı. Murad da həmin batalyonun döyüşçüsü idi. Özünümüdafiə batalyonun döyüşçüləri məlum gündən daha öncədən, yəni Xocalıya hər gün atəş açılarkən əhalinin gizlənə biləcəyi zirzəmilər qazırdılar, torpağımızın müdafiəsi üçün hazır dayanırdılar.

Fevralın 26-sı səhər saatları idi. Uşaqları oyadıb məktəbə yola saldım, lakin evdən çıxdıqdan çox keçməmiş geri qayıtdılar. Onlar məktəb yolunda vəziyyətdən xəbər tutmuşdular. Ermənilərin Xocalıda camaata gecəyarı divan tutduqlarını eşidəndə sanki bədənim qurudu. Axı mənim qardaşlarım, gəlinimiz, qohum-qardaşlardan bəziləri hələ də orada idilər…"

Əzizlərinin başına gəlmiş bu fəlakətdən ürək yanğısı ilə danışan müsahibimiz sözlərinə belə davam edir: "Hadisədən xəbər tutanların hamısı Ağdamın mərkəzinə – məscidin önünə toplaşmışdı. Həmin gecə Xocalıdan canını qurtara bilib Ağdama pənah gətirən insanların vəziyyəti çox dəhşətli idi. Piyada gələnlərin hamısı başıaçıq, ayaqyalın, əlləri və ayaqları donmuş halda idi, halsızlıqdan yeriyə, danışa bilmirdilər. Deyirdilər ki, ermənilər yolda-izdə qarşısına çıxan hər kəsi – uşaq, qadın, yaşlı deyib ayırmadan güllələyirdilər. Qaça bilənlərin isə çoxu qışın sərt ayazında meşələrdə, yollarda dözə bilməyib canını tapşırmışdı.

Az sonra qardaşım Muradı tapa bildik. Onu görəndə keçirdiyim sevincin həddi-hüdudu yox idi, sanki ürəyimə su səpildi. Düşündüm ki, Murad gəlibsə, Vaqif də gələcək. Murad baş verənləri nağıllayanda isə ömürboyu ailəmizin dərdinə çevriləcək o xəbəri aldıq. Əvvəlki gecə Murad Xocalının ən strateji yeri olan "Cəfər" təpəsindəki postda rəhbərlik edirmiş. Səhər saat $04^{00}$-a kimi postu müdafiə ediblər, ona görə də ermənilər ora girə bilməyib. Amma sol cinahdan mühasirəyə düşəndən sonra geri çəkilməli olublar. Muradgilin onlara qarşı müqavimət göstərmək üçün texnikaları olmadığından düşmənə güc göstərə bilməyiblər. Xocalıda olan dinc əhalini çıxarmağı qərara alıb postdan ayrılıblar. Murad Vaqifə tapşırıb ki, bir az irəlidə gedib Bəsirəni, camaatdan kimi tapsa götürüb Xocalının aşağısı ilə şəhərdən çıxarsın. Murad da arxalarınca gedəcəkmiş. O əsnada küçə atışması başlayıb. Atışmadakı qarışıqlıqdan, təşvişdən heç kimin bir-birindən xəbəri olmayıb. Murad da Vaqifi sonuncu dəfə orada görüb. Batalyon döyüşçüləri ilə birgə 100-ə yaxın insanı Xocalıdan meşəyə çıxarmağı bacarıblar. Ancaq onların içərisində nə Vaqifə, nə də Bəsirəyə rast gəlib. Ağdam yaxınlığında qarşı tərəf pusqu qurubmuş. Həmin insanların əksəriyyətini orada qətlə yetiriblər.

Qəhərdən boğazı quruyan Sevda xanım söhbətə azca ara verdikdən sonra deyir: – O gündən 31 il ötüb... Nə Vaqif, nə də Bəsirə qayıtmadı. Xocalıda Vaqifgilin qonşusunun oğlu Vaqiflə Bəsirənin ermənilər tərəfindən öldürüldüyünü dedi. Vaqifin əlində silah var imiş, ermənilər də gəlib onu tüfəngli görüb vurublar, Bəsirə də ermənilərin üstünə gedəndə onu da qətlə yetiriblər. Qardaşımızın yadigarı – 5 balası isə hər iki valideynini itirmiş 25 uşaqdan oldular.

O vaxtdan qardaşım Murad, bacım Südabə onlara baxmağa başladı. Onlar elə bizim uşaqlarla bacı-qardaş kimi birevli böyüdülər. Bacım Südabə bütün həyatını onlara həsr etdi. Ailə həyatı belə qurmadan qardaşım Muradla birgə onlar üçün çalışıb çabaladı. O zamanlar böyüyünün 12 yaşı olan 5 balamız ana-ata həsrəti yaşadı. Biz isə çalışıb-vuruşduq ki, onlar bu cəhətdən nə qədər qəlbisınıq olsalar da, heç nədən korluq çəkməsinlər, çətinlik görməsinlər. İllər sonra qardaşımın böyük qızı müsahibə verərkən belə bir cümlə işlətmişdi: "Məndən şəkil istəyirsiniz. Bizim uşaqlıq şəkillərimiz yoxdur. Bütün uşaqlıq şəkillərimiz, ailə albomumuz, əşyalarımız, bizə aid nə varsa, hamısı Xocalıda qaldı. Bizim uşaqlıq xatirələrimizi ermənilər qana boyadı..."

İndi o valideyn dərdi, yurd-yuva həsrəti çəkən balaca uşaqlar böyüyüb, hamısı da təhsil alıb, 3-ü ailə qurub. Onları böyüdərkən tək olmadıq. Biz dövlətimiz tərəfindən göstərilən qayğıdan çox razıyıq. Dövlətimiz və Heydər Əliyev Fondu diqqətini, qayğısını onlardan əsirgəmədi, ev-eşiklə təmin etdilər. Xocalı sakinlərinin başına gələnlər insanlıq tarixinin ən böyük yarası, məlhəmi isə zəfərimizdir. Çox şükür, Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin sayəsində Qarabağımız bu gün azaddır. Ordumuza, dövlətimizə hər gün dua edirəm, Allah daim o igidlərin başının üstündə olsun. Murad artıq dünyasını dəyişib. Xocalı onun ən ağır dərdi idi. Həmişə deyirdi ki, bax elə günü bu gün Xocalıma, torpağıma qayıtsam elə bilərəm ki, o əzab-əziyyətin, itkinin heç birini görməmişəm. Kaş hər iki qardaşım azad Qarabağımızı görə idi. Ancaq onu bilirəm ki, biz öz evimizə geri dönəndə, həyatını itirmiş əzizlərimizin ruhları rahatlıq tapacaq".

**Aysel YUSİFZADƏ**

## Cəsur ömrün Vətən məramı



Ətrafdakı sükutu ayaq səsləri pozurdu, bir də şəhidlərin azadlıq fəryadı... Minlərlə canım torpaq uğrunda fəda olduğu igidlərin məkanı idi sözügedən yer. Hansı ki rahatsız günlərə, yuxusuz gecələrə, Vətən həsrətinə son qoyanların – şəhidlərin məkanı idi bura. Vətən eşqinin gücü ilə asfaltı yarıb göyərən ot kimi düşməni yarıb keçmişdi şəhidlərimiz. “Torpaq” fəryadını “Qələbə” müjdəsi ilə əvəz edən qəlblərin bayram etdiyi gündə, ən uca məqama qalxanlar idi şəhidlərimiz. Məzarın üzərindəki qərənfili yenisi ilə əvəz edəndə sanki qəlbindəki qardaş həsrətini də yeniləmişdi. Həmin an yaddaşı çox yox, sadəcə, bir neçə il keçmişə, qardaşının olduğu günlərə aparmışdı onu. Gülüşü ilə anasının qəlbini od kimi isitdiyi günlərə. Bəli, hər şey yerində idi, ancaq Arifdən başqa. Bacısının xülyaları artıq onu Arifin həyatının sonuna, yəni şəhid olduğu, artıq həyatda olmadığı zamana gətirmişdi. Demək çətin olsa da, həqiqət bu idi. Bunu düşünəndə qardaşının hələ də yoluna dikilmiş gözlərindən bir damla yaş axmışdı. Amma artıq qardaşının saçlarına toxunmayan əlləri ilə dərhal həmin göz yaşını sildi. Axı Arif onu ağlayan görmək istəməzdi...

Ailəsinin ilk övladı idi. Arif Firuz oğlu Abbaslı 15 dekabr 1993-cü ildə dünyaya gözünü açmışdı. O, gəlişi ilə ailəsinin çətinlik dolu həyatına bir gözəllik qatmışdı. Yox, bir yox, min gözəllik. O, həyat adlı səhnədə ilk addımlarını atır, qarşısında duran uzun yolu yeni dərk edirdi. Həyatın bütün çətinliklərinə rəğmən xoşbəxtliyini gözlərindəki, üzündəki tək bir təbəssümə sığdırmışdı. Təbəssümünün gözəlliyi qədər də xəyalları var idi Arifin. Lakin tamamlanmayan təbəssümü kimi xəyalları da yarım qaldı. Kim bilər, bəlkə də, şəhid olaraq ən böyük xəyalına çatmışdı?! Anasının cadar-cadar olan əllərinə baxanda sanki Arifin qəlbi də belə olurdu. Atasının üzündəki yorğunluğu öz gülüşü, səsi ilə yox edirdi. İndi isə gülüşü də, səsi də yox idi. Elə gülümsəməsi ilə ruh oxşayan çöhrəsi kimi. Arifin şəkillərinə baxanda itkin siması gözə gəlirdi. Çox qısa bir müddətlik olsa da, şəkilləri reallığı əvəz edirdi. Şəkillərindən əks-səda verən o qürurlu baxışlar qürurlu bir xalqın əzəmətinin güzgüsü idi. Bu güzgüdə yalnız əzəmətin deyil, bir xalqın qəhrəmanlığının, iradəsinin, Azərbaycançılıq ideologiyasının yansıması var idi. Bu iradə bizi dağ kimi sarsılmaz, ümman fəryadı kimi parlaq qələbəyə çatdırmışdı. Sadəcə, qəlbimizdə yara var idi, tək bir yara. 3000 şəhid, 3000 igid. Hansı ki gözəlliyi, xoşbəxtliyi gözlərində aparan igidlər. O igidlər ki həyatın gözəlliyini özləri ilə birlikdə məzara dəfn etmişdilər...

Məzarın üzərində qönçələyən çiçək də, bu gözəlliyin əzəməti idi. 30 illik əsarətin qurtuluş rəmzinin yaradıcısı idi bu şəhid. Ömrünün qönçə çağında ölümün gözünə dik baxmışdı bu şəhid. Şəhidlik arzusu Arifin yuxusuz gecələrinin əlçatmaz arzusuna çevrilmişdi. Axı onlar mürəkkəblə yazılan saxta tarixi qanla yazılan Qurtuluş Dastanına çevirmək arzusunda idilər. Müharibə sözü Arifin qəlbində illərdir, alışan Vətən sevgisini, torpaq həsrətini, qisas istəyini heç vaxt sönməyən bir məşəl kimi alovlandırmışdı. Çətinliyə dözməyən, heç nəyə dözməz! – bu sözlərlə başladı, azadlıq carçısının şəhidlik hekayəsi. Güllə də diksindi baxışından bu igidin, nəinki yağı düşmən. Vətən naləsi idi ona bu iradəni, bu gücü verən. Axı biz türkük, axı biz türk qanı daşıyırıq.

**İlknur HAQVERDİYEVA**
**Şəmsiyyə MUSAYEVA**
***Kəngərli rayonu, Qıvraq qəsəbə tam orta məktəbinin 10-cu sinif şagirdləri***

## Babək və Culfa rayonlarında “Heydər Əliyev İli” tədbirləri çərçivəsində tibbi aksiyalar təşkil edilib



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyi münasibətilə Azərbaycan Respublikasında elan olunmuş “Heydər Əliyev İli” tədbirləri çərçivəsində muxtar respublika sakinlərinə humanitar tibbi aksiyalar təşkil olunur. Ümummilli Liderin əziz xatirəsinə həsr edilmiş humanitar aksiyalarda Babək və Culfa rayon sakinləri də iştirak ediblər. Belə ki, fevralın 24-də Babək Rayon Mərkəzi Xəstəxanası publik hüquqi şəxsin ixtisaslı həkim briqadası tərəfindən rayonun Vayxır kənd ambulatoriyasında Vayxır və Xalxal kənd sakinləri üçün Mərkəzi Xəstəxananın nevropatoloq, terapevt, pediatr, kardioloq, USM, ginekoloq, oftalmoloq, stomatoloq həkimləri tərəfindən həkim və laborator xidmətlər göstərilib. Ümumilikdə, 204 nəfərin iştirak etdiyi aksiyada 250-dən çox müayinə aparılıb ki, həmin müayinələr zamanı 19 nəfərdə patologiyalar aşkarlanıb. Həmin şəxslər isə müayinə proseslərinin davamı üçün Babək Rayon Mərkəzi Xəstəxanasına dəvət olunub.

Eyni məqsədlə Culfa Rayon Mərkəzi Xəstəxanası publik hüquqi şəxsin ixtisaslı həkim briqadası tərəfindən isə rayonun Əbrəqunus kənd sakinlərinə müxtəlif tibbi xidmətlər göstərilib. Belə ki, xəstəxananın nevropatoloq, terapevt və otolorinqoloq həkimləri tərəfindən müayinə edilən 46 kənd sakinindən 35-də müxtəlif xəstəliklər (xroniki tonzillit, miqren, hipertoniya, revmatizm, böyrək daşı, qastrit, burun qanaxması, eşitmə zəifliyi və sair) aşkar edilib.

İxtisaslı həkimlər müayinələrin nəticələrinə uyğun olaraq yerindəcə lazımi müalicələri icra etməklə yanaşı, bəzi xəstəliklərə görə də müvafiq xəstəxanada müalicələrini davam etdirmələri üçün sakinlərə tövsiyələr veriblər. Yenidən müalicə və müayinələrin aparılması məqsədilə bəzi sakinlər Rayon Mərkəzi Xəstəxanasına dəvət olunub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Selcan Abdullayeva: “İspaniyada təhsil ixtisasımı daha mükəmməl öyrənməyimdə, dünya təcrübəsini mənimsəməyimdə mühüm rol oynadı”

*Müsahibimiz Erasmus+ K107 mübadilə proqramı çərçivəsində İspaniyanın Valladolid Universitetində təhsil almaq hüququ qazanan “Naxçıvan” Universitetinin dissertantı Selcan Abdullayevadır. 27 yaşlı dissertantımız Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbdə təhsil alıb. Daha sonra Naxçıvan Dövlət Universitetində İngilis dili ixtisasına yiyələnib. 2017-ci ildə isə həmin universitetə magistraturaya qəbul olub. 2019-cu ildən isə “Naxçıvan” Universitetinin Xarici dillər fakültəsində müəllim kimi fəaliyyətə başlayıb.*

***– Selcan xanım, əvvəlcə sizi kollektivimiz, eləcə də çoxsaylı oxucular adından təhsildəki uğurunuz münasibətilə təbrik edir, müvəffəqiyyət arzulayırıq. Xaricdə təhsil almaq qərarı necə yarandı? Müraciət prosesi necə idi? Bir az bu barədə danışardınız...***

– Bir gənc kimi xaricdə təhsil almaq hər zaman maraq dairəmdə olmuşdur. Universitetimiz bu baxımdan bizə gözəl imkanlar yaradıb. Və beləliklə, xaricdə bütün resurslardan istifadə etməyin mənim üçün çox yararlı olacağını düşündüyümdən Valladolid Universitetinə Erasmus+ proqramı üçün müraciət etdim. Nəticələr açıqlandıqda qəbul olduğumu eşidib çox sevindim. Müraciət prosesində çox da çətinlik yaşanmadı. Ümumiyyətlə, Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları bütün proses zamanı bizimlə yaxından maraqlanır, çətinlikləri aradan qaldırmağa kömək edirdilər. Müraciətin onlayn formada olması işi daha da asanlaşdırır. Həmçinin müraciət etmək istəyən hər kəsə deyə bilərəm ki, proses çox asandır və hər iki universitet bunun üçün hərtərəfli dəstək olur.

***– Yaşadığınız şəhər və universitet haqqında nə deyə bilərsiniz?***

– İspaniyanın Valladolid şəhərində 5 ay müddətində oldum. Şəhər təmiz, sakit və rahat idi. Demək olar ki, bir çox yerə piyada getmək mümkün idi. Bundan əlavə, əhali çox mehribandır və bəzən dil problemi yaşasaq belə hamı bizə köməklik göstərməyə çalışırdı. Universitet haqqında onu deyə bilərəm ki, böyük və eyni zamanda hərtərəfli təchiz edilmiş ali təhsil ocağıdır. Fakültələr müxtəlif yerlərdə olsa belə hər birinin zəngin kitabxanası var idi. Kitabxanalardan istifadə üçün hər cür şərait yaradılıb. İstədiyin kitabı sifariş edərək rahatlıqla olduğun fakültədən əldə etmək mümkün idi.

***– Bəs oxuduğunuz universitetdəki təhsil həyatı milli ali təhsil ocaqlarımızdakı təhsil mühiti hansı xüsusiyyətləri ilə fərqlənir?***

– Ümumiyyətlə, dissertant kimi müəyyən sxem üzrə dərslərdə iştirak edirdik. Orada təhsil, əsasən, proyekt yönümlü olduğundan qrup halında daha çox işləyirdik və bu da qrupla işləmək bacarığını təkmilləşdiririr. Nəzərə alsaq ki, universiteti bitirdikdən sonra hər kəs daxil olduqları işdə komanda ilə işləməli olacaq, bu, çox gözəl bir xüsusiyyətdir.



***– Aldığınız təqaüd xərcləri qarşılamağa bəs edirdimi?***

– Təqribən, 850 avro aylıq təqaüd alırdıq. Kirayə və yaşayış xərcləri üçün kifayət edirdi. Bir də, əslində, ən gözəl tərəfi də elə o idi ki, məcbur olub büdcəni idarə etməyi öyrənirsən...

***– Ümumiyyətlə, xaricdə təhsil aldığınız müddətdə nə kimi çətinliklərlə qarşılaşdınız?***

– Çətinliklər haqqında deyə bilərəm ki, ünsiyyət problemi var idi. Dil baryeri olduğundan ünsiyyət qurmaq çətin idi və bir müddət sonra ünsiyyətsizlik insanı psixoloji cəhətdən çox yorurdu. Bundan əlavə, xəstəlik, yorğunluq, məişət işlərinin öhdəsindən təkbaşına gəlmək məcburiyyətində idim və bu da istər-istəməz insanda müstəqil hərəkət etmək, sərbəst qərar qəbul etmək, özünənam formalaşdırır.

***– Xaricdə olduğunuz müddətdə ən çox nə üçün darıxırdınız?***

– Ən çox öz dilimizdə danışmaqdan və yeməklərimizdən ötrü...

***– Xaricdə təhsil alan tələbələrin bəziləri oxuduğu ölkələrdə qalıb Azərbaycana gəlmək istəmirlər. Siz bunu nə ilə əlaqələndirirsiniz?***

– Bəlkə də, insan öz gələcəyini, fəaliyyət perspektivini başqa ölkədə görür və təhsil aldığı ölkədə cəmiyyətə, insanlara daha çox fayda verə biləcəyini düşünür. Lakin harada yaşamağımızdan asılı olmayaraq, doğma Azərbaycanımızın dövlətçilik maraqlarını, milli mənafelərini qorumalı, Azərbaycan həqiqətlərinin təbliğatçısına çevrilməliyik. Dövlətimizin başçısı, Prezident cənab İlham Əliyev Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində keçirilən, “Zəfər Qurultayı” kimi tarixə düşən Dünya Azərbaycanlılarının V Qurultayındakı nitqində Azərbaycan diasporunun mühüm vəzifələrini, gələcək fəaliyyət istiqamətlərini sadalamış, həmin tarixi çıxışı zamanı demişdir: ***“Əlbəttə, mən çox şadam ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımız Azərbaycan ilə daim təmasdadırlar, Dövlət Komitəsi ilə təmasdadırlar və müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatları arasında koordinasiya da təkmilləşir. Bu da çox vacibdir. Əlbəttə, biz hamımız – Azərbaycanda yaşayan azərbaycanlılar istəyirik ki, xaricdə yaşayan azərbaycanlılar öz tarixi Vətəni ilə sıx bağlı olsunlar. Heç olmasa, ildə bir dəfə hər bir azərbaycanlı öz ailəsi ilə Azərbaycana gəlsə, çox yaxşı olar – xüsusilə azad edilmiş torpaqlara getmək üçün”.***

***– Sonda bir daha xaricdə təhsilin üstünlüklərindən danışmanızı istərdim.***

– Əvvəla, xarici dilin inkişafı bu üstünlüklərdən biridir. Müxtəlif ölkələrdə ictimai-siyasi abhavanı, ayrı-ayrı xalqların milli mentalitetini, yaşayış tərzini, yeni bir mədəniyyət öyrənmək, müxtəlif insanlarla dostlaşmaq, öz ixtisasını daha mükəmməl şəkildə öyrənmək, dünya təcrübəsini mənimsəmək bu üstünlüklərdəndir.

***– Gələcək üçün nə kimi planlarınız var?***

– Hazırda gələcək üçün planım akademik karyera qurmaq və yeni sahələr öyrənməkdir. İnsan bir şeyi öyrənməyə başlayanda istər-istəməz digər sahələrə də qapı açır və təhsilə maraq, fərqli düşüncə tərzi, öyrənmək təşəbbüskarlığı və zəhmətkeşlik mütləq uğur dolu nəticəsini verir. Mən buna inanıram.

***– Müsahibə üçün təşəkkürümü bildirir, gələcək fəaliyyətinizdə uğurlar arzu edirəm.***

**Aynur ƏLİYEVA**
***“Naxçıvan” Universitetinin ictimaiyyətlə əlaqələr və marketinq sektorunun müdiri***

*Naxçıvan Dövlət Universitetinin tərəfdaşlığı, Azərbaycan Gənclər Fondunun maliyyə dəstəyi ilə “İdeyanı reallaşdır – 2022” qrant müsabiqəsinin qalibi “TAP-MAT intellektual şahmat oyunu üzrə birincilik” layihəsinin final mərhələsi olub.*

## Layihənin bağlanış mərasimi keçirilib



Tədbirdə çıxış edən universitetin rektoru, dosent Elbrus İsayev layihənin missiyası, tələbələrə qazandırdığı bilik və təcrübə, həmçinin tələbələrin asudə vaxtlarının səmərəli təşkili üçün belə layihələrin həyata keçirilməsinin önəmini vurğulayıb.

Sonra Naxçıvan Dövlət Universiteti Tələbə-Gənclər Təşkilatının sədri Əziz Qasımov və layihə rəhbəri Adəm Məmmədov çıxış ediblər. Qeyd olunub ki, layihə çərçivəsində muxtar respublikada yerləşən ali və orta ixtisas təhsili müəssisələrində seçim turları keçirilib. Seçim turunda 96 tələbə-gənc iştirak edib və hər təhsil müəssisəsindən qaliblər oyunun final mərhələsinə vəsiqə qazanıb.

Sonda videoçarx nümayiş etdirilib. Seçim turlarında və finalda qalib olan iştirakçılar diplom, medal və kubokla təltif olunublar.

Qeyd edək ki, “TAP-MAT” intellektual şahmat oyunu Naxçıvan Dövlət Universitetinin əməkdaşları tərəfindən hazırlanıb, Əqli Mülkiyyət Agentliyi tərəfindən müəlliflik hüququ şəhadətnaməsi alıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

### İtmişdir

Babək rayon Aşağı Buzqov kəndində yaşamış Həsənov Əli Səfərəlı oğlunun adına qeydiyyata alınan 11.11.2022-ci il tarixli A№031461 inventar nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Ələkbərov Zakir Nurəli oğlunun adına olan Naxçıvan şəhəri, N.Naxçıvani küçəsi, döngə 3, ev 3 ünvanında yerləşən fərdi yaşayış evinin 795 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 145